# İlham Əliyev Azərbaycanın düşmənlərinə siyasət dərsi keçdi

"Prezident İlham Əliyevin Almaniya Kansleri Olaf Şoltsun dəvətilə "15-ci Petersberg İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak etmək üçün Almaniyaya səfəri xeyli əhəmiyyətli oldu. Dövlətimizin başçısı tədbirdəki çıxışı ilə Qərb siyasətçilərinə, xüsusən də Avropada Azərbaycana qarşı düşmən mövqeyi ilə "seçilən"lərə əsl siyasət dərsi keçdi. Prezidentimiz böyük siyasətçilərə və prinsipial dövlət başçılarına xas olan liderlik xüsusiyyətlərini Avropa diplomatlarına sübut etdi".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva deyib. Deputat Prezident İlham Əliyevin çıxışı zamanı toxunduğu vacib məsələlər barədə danışıb: "Dövlət başçısının Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol barədə söylədiyi fikirlər çox dəyərlidir. Ölkəmiz Avropa İttifaqına üzv 9 dövlətlə strateji tərəfdaşlıq haqqında saziş və Bəyannamə imzalayıb. Avropanın bir çox dövlətləri Azərbaycanı etibarlı tərəfdaş hesab edir. Son illər Avropada yaranmış gərgin geosiyasi vəziyyətlə əlaqədar ölkələrin enerji təhlükəsizliyinə böyük problemlər yarandığı bir vaxtda bu, vacib məsələdir. Müasir dövrdə enerji təhlükəsizliyi milli təhlükəsizliyə bərabər tutulur. Bu səbəbdən Avropa İttifaqının rəhbərliyinin Avropa dövlətlərinin enerjiyə olan ehtiyaclarını ödəmək üçün Azərbaycana etdiyi müraciət İlham Əliyev tərəfindən müsbət qarşılanıb. 2022-ci ilin iyulunda Avropa İttifaqı Komissarlığı ilə Azərbaycan dövləti arasında Avropaya təbii qazın nəql edilməsi üzrə Anlaşma Memorandumu imzalanıb. Artıq hər il Azərbaycandan "Cənub qaz dəhlizi" vasitəsilə Avropa dövlətlərinə 12 milyard kubmetr təbii qaz ixrac edilir. İmzalanmış Memoranduma əsasən, 2027-ci ilə qədər qaz ixracının 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulub. Hər il Azərbaycandan qaz almaq istəyən Avropa dövlətlərinin sayı artmaqdadır. Bununla da Azərbaycan hər zaman dostluğa, qarşılıqlı hörmətə və etimada sadiq bir dövlət olduğunu nümayiş etdirir".

Deputatın sözlərinə görə, Prezident İlham Əliyev çıxışında Azərbaycanın "yaşıl enerji" istehsalı sahəsində də öncül dövlətlərdən olduğunu və bu sahədə böyük layihələrə imza atdığını vurğulayıb. Azərbaycan neft və qazla zəngin təbii ehtiyatlara malik dövlət olmasına baxmayaraq, Yer kürəsində iqlim dəyişikliyinə qarşı, dünyada "yaşıl enerji"yə keçidlə bağlı bir sıra böyük layihələr həyata keçirilib və bu işlər ardıcıl davam etdirilir. Qarabağ və Şərqi Zəngəzur dövlət başçısı tərəfindən "yaşıl enerji" zonası elan edilib.

"Bakı və ətraf ərazilərdə günəş və küləklə işləyən elektrik stansiyaları inşa edilib və bu işlər regionlarımızı da əhatə edəcək. 2030-cu ilə qədər Azərbaycan elektrik enerjisinə olan tələbatının 30 faizini bərpaolunan enerji ilə təmin etməyi planlaşdırır. Bununla yanaşı, yaxın illərdə ölkəmizdə istehsal olunacaq "yaşıl enerji" də Avropa dövlətlərinə ixrac ediləcək. "Yaşıl enerji" istehsalı ilə təbii qaza qənaət ediləcək ki, bu da 5 milyard kubmetrə bərabər olacaq. "Yaşıl enerji"nin artırılmasının ümdə məsələ olmasına baxmayaraq, dünyada təbii qaza tələbat da uzun illər mövcud olacaq. Nəzərə almaq lazımdır ki, Azərbaycanda təbii qaz yataqlarında kifayət qədər qaz resursları mövcuddur və qaz hasilatını artırmaq imkanımız böyükdür", - deyə müsahibimiz əlavə edib.

Kamilə Əliyeva yekunda vurğulayıb ki, Prezident İlham Əliyevin çıxışından sonra Qərb bir daha anladı ki, Azərbaycan tək region üçün deyil, dünya üçün çox əhəmiyyətli, güclü və etibarlı dövlətdir.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Qırğız Respublikası ilə əlaqələr elm və təhsil sahəsində də inkişaf edir

Hazırda Azərbaycan və Qırğız Respublikası arasında ikitərəfli və çoxtərəfli əlaqələrin yüksələn xətlə inkişafında humanitar sfera, o cümlədən elm və təhsil sahəsində əməkdaşlıq əhəmiyyətli rol oynayır. Eyni zamanda hər iki ölkənin dövlət başçılarının siyasi iradəsinə, tarixi, dil, din və etnik bağlılığa əsaslanan qardaşlıq və dostluq münasibətlərinin uğurlu perspektivi digər sahələrlə yanaşı, elm və təhsil əlaqələrinin də gücləndirilməsinə ciddi zəmin yaradır.



Bu nöqteyi-nəzərdən cari il aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması ikitərəfli əlaqələrin inkişafında yeni səhifə oldu. Həmçinin imzalanmış sənədlər arasında "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş"in yer alması ölkələrarası əməkdaşlığın gündəliyində elm və təhsilin də prioritet rolunu bir daha təsdiq etdi.

Regionda yerləşən və hazırda modernləşmə istiqamətində fəaliyyətlərini davam etdirən Mingəçevir Dövlət Universitetində (MDU) də Azərbaycan və Qırğız Respublikası arasında elm və təhsil əlaqələrinin inkişafına xüsusi önəm verilir. Dövlətimizin bu istiqamətdə həyata keçirdiyi uğurlu siyasətin yaratdığı geniş imkanlardan faydalanmaq, eləcə də əməkdaşlığın inkişafına töhfə vermək məqsədilə MDU-nun xarici əlaqələrində Qırğız Respublikasının müvafiq ali təhsil müəssisələri ilə işbirliyinin qurulması və genişləndirilməsi diqqət mərkəzində saxlanılır.

2022-ci ilin 14-15 sentyabr tarixlərində MDU Qırğız Respublikasının paytaxtı Bişkekdə keçirilən Dünya Rektorlar Forumunda təmsil olunmuşdur. "Milli innovasiya ekosisteminin qurulmasında universitetlərin rolu" mövzusuna həsr olunan forum Qırğız Respublikasının Təhsil və Elm Nazirliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının birgə təşkilatçılığı ilə baş tutmuşdur. Dünyanın 60-a yaxın ölkəsindən 100-dən çox ali təhsil müəssisəsinin rəhbərlərinin, ekspertlərin, beynəlxalq təşkilatların və proqramların nümayəndələrinin qatıldığı forumun panel sessiyasında "Yeni dövrün universitetinin qurulması: innovativ və dayanıqlı inkişaf əsaslı ali təhsil müəssisəsi konsepsiyası" mövzusunda təqdimatla çıxış etmişik. Eləcə də, forum çərçivəsində MDU və Qırğız İqtisad Universiteti arasında Anlaşma Memorandumu imzalanmışdır. Memorandum universitetlər arasında qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın yaradılmasını və birgə fəaliyyətlərin həyata keçirilməsini özündə ehtiva edir.

2022-ci ilin 16 sentyabr tarixində Qırğız İqtisad Universitetinə növbəti ziyarətimiz olmuşdur. Universitetin rəhbər heyəti ilə görüşdə əməkdaşlığın potensial inkişaf istiqamətləri barədə müzakirələr aparmış, bu ali təhsil müəssisəsinin kollektivi qarşısında "Yeni dövrün universitetinin qurulması: Mingəçevir Dövlət Universiteti təcrübəsi" mövzusunda təqdimat etmişik.

Bununla yanaşı, MDU-nun nümayəndələri 2023-cü ilin oktyabrın 25-də Qırğız İqtisad Universitetinin 70 illik yubileyinə həsr olunan "İqtisadi reallıqların yeni çağırışları" mövzusunda beynəlxalq elmi konfransda təmsil olunmuşdur. Konfransın plenar iclasında "Davamlı iqtisadi inkişaf: əsas konsepsiya, qiymətləndirmə metodları və Azərbaycan nümunəsi" mövzusunda məruzə ilə çıxış etmişik. Həmçinin konfransın bölmə iclaslarında MDU-nun 11 əməkdaşı məruzələrlə çıxış etmişdir.

Yubiley mərasimində MDU rektorunun Qırğız İqtisad Universitetinin fəxri professoru diplomu ilə təltif edilməsi universitetlərarası əməkdaşlığın inkişafına göstərilən xidmətlərə verilən qiymətin ifadəsi kimi dəyərləndirilə bilər.

Bundan əlavə, Qırğız İqtisad Universiteti müvafiq olaraq 2021-ci və 2023-cü illərdə MDU-da "Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər" mövzusunda keçirilən birinci və ikinci beynəlxalq elmi konfranslara uğurla həmtəşkilatçılıq etmişdir.

İki ölkənin hökumətləri arasında imzalanan saziş elm və təhsil sahəsində qarşılıqlı maraq doğuran istiqamətlərdə əlaqələrin daha da gücləndirilməsini, təhsil subyektlərinin çoxşaxəli akademik əməkdaşlıq təşəbbüslərinin reallaşdırılmasını dəstəkləməklə əlverişli hüquqi baza təmin edəcəkdir. Hər iki ölkənin ali təhsil və elmi-tədqiqat müəssisələri saziş çərçivəsində potensiallarının gücləndirilməsinə hədəflənən geniş birgə fəaliyyət alətlərindən fəal surətdə faydalanmaqla əməkdaşlıq prosesində hərəkətverici rola malik olacaqlar. Yeni mərhələdə MDU ilə Qırğız İqtisad Universiteti və Qırğız Respublikasının digər müvafiq ali təhsil müəssisələri ilə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına xüsusi diqqət göstəriləcəkdir.

***Şahin BAYRAMOV,***
***Mingəçevir Dövlət Universitetinin rektoru***

# Vasitəçisiz təmaslar nəticə verir

## Demarkasiya prosesi bölgədə dayanıqlı sülh üzrə nikbin baxış vəd edir

"Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 8-ci görüşündə əldə olunan nəticənin sürətlə realizə olunması bölgədə dayanıqlı sülh üzrə nikbin baxış vəd edir. Xüsusən, Bakı və İrəvan arasında 19 aprel razılaşmasına müvafiq olaraq, Qazaxın 4 qeyri-anklav kəndinin Azərbaycan tərəfə hər hansı hərbi məcburetmə tədbirlərinə ehtiyac duyulmadan və bir güllə atılmadan təhvil verilməsi istiqamətində işlərin intensivləşməsi prosesin Azərbaycanın iradəsinə uyğun olaraq sürətlə irəliləməsindən xəbər verir".

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib.



### Regionda sülh və sabitliyin ayaq səsləri eşidilir

Deputatın fikrincə, delimitasiya və demarkasiya özlüyündə uzun sürən prosesdir. Prezident İlham Əliyev bu ilin yanvarında yerli televiziyalara müsahibəsində də ifadə etdiyi kimi, kifayət qədər yüksəksəviyyəli münasibətlərimizin olmasına baxmayaraq, Azərbaycan və Gürcüstan arasında delimitasiya prosesi başa çatmayıb, eyni zamanda Rusiya ilə delimitasiya və demarkasiya prosesini tam yekunlaşdıra bilməmişik. Belə olan təqdirdə, 30 ildən artıq münaqişə şəraitində yaşadığımız və faktiki olaraq qarşılıqlı etimad mühitinin olmadığı Ermənistanla cəmi 8 görüşə sərhədlərin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri komissiyalarının ciddi nəticələr əldə etməsi və qısa zaman kəsiyində sərhəd dirəklərinin quraşdırılması artıq regionda sülh və sabitliyin ayaq səsləri kimi qiymətləndirilməlidir. Müşahidə olunan bu reallıqlar ilk növbədə Prezident İlham Əliyevin prinsipial və qətiyyətli mövqeyinin qələbəsidir. Bu mənada, şərti sərhədlərin ən mürəkkəb istiqamətlərindən birində əldə olunan müvafiq müsbət meyillər məhz cənab İlham Əliyevin qətiyyətli mövqeyinin realizəsidir.

Deputat qeyd edib ki, Müzəffər Ali Baş Komandan 2020-ci il 10 noyabr kapitulyasiya aktına müvafiq olaraq Ağdam, Kəlbəcər və Laçın rayonlarının Azərbaycana təhvil verilməsində ehtiva olunan tarixi uğurunu təkrarlayaraq, regionda istənilən situasiyada son sözün sahibinin kim olduğunu bir daha əməli formada nümayiş etdirib: "Hazırda delimitasiya prosesi sərhəd xəttinin ayrı-ayrı hissələrinin Sovet İttifaqı çərçivəsində onun süqutu dövründə mövcud olduğu hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq həyata keçirilir. Azərbaycan Vətən müharibəsindən dərhal sonra cənab İlham Əliyevin təşəbbüsü ilə başlanan sülh prosesində delimitasiya işlərinin məhz bu şərtlər üzrə aparılmasını məqbul hesab edirdi. Aydındır ki, Azərbaycan beynəlxalq hüquqla, o cümlədən istər 2022-ci il Praqa, 2023-cü il Brüssel görüşlərində, istərsə də 19 aprel razılaşmasında istinad olunan 1991-ci il Alma-Ata Bəyannaməsinə əsasən, özünə məxsus olan bir qarış da olsun torpağı güzəştə getmək niyyətində deyildi. Rəsmi Bakı bu mövqeyini açıq formada dəfələrlə bəyan etmişdi".

### Bakının mövqeyi hüquqi cəhətdən qanuni və ədalətlidir

Azərbaycanın yeni hərbi gərginlik arzulamadığını deyən B.Məhərrəmov bildirib ki, ölkəmiz beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir: "Lakin biz, eyni zamanda işğalda qalan anklav və qeyri-anklav kəndlərimizi sabitlik naminə qurban vermək barədə öhdəlik də götürməmişik. Ermənistan və havadarları bunu yaxşı başa düşür. Xüsusən, Vətən müharibəsi və antiterror tədbirlərində atılan qəti addımlar fonunda yaxşı anlayırdılar ki, bu məsələdə Bakıdan güzəşt gözləməyə dəyməz. Bu gün şərti sərhədlərdə 19 aprel razılaşmasına müvafiq olaraq həyata keçirilən tədbirlər fonunda demək olar ki, Ermənistan, nəhayət Bakının mövqeyinin hüquqi cəhətdən qanuni və ədalətli, praktiki cəhətdən isə səmərəli olmasını dərk etməyə başlayıb".

Deputatın fikrincə, bu, bir daha göstərir ki, proseslərin bu günə qədər ləngiməsinin heç bir tutarlı əsası olmayıb. Ümumiyyətlə, kəndlərimizin geri qaytarılmasını da ehtiva edən 19 aprel razılaşması və hazırda bu istiqamətdə həyata keçirilən tədbirlər, habelə sərhəd dirəklərinin basdırılması özlüyündə beynəlxalq hüququn təntənəsidir və Ermənistanda sağlam təfəkkürə malik heç bir subyekt bu prosesdə məğlub görünmür.

B.Məhərrəmov qeyd edib ki, Azərbaycan və Ermənistan arasında müvafiq razılaşmanın imzalanmasının ardınca özünü beynəlxalq ictimaiyyət adlandıran və bölgədə guya "sülh arzulayan" qlobal subyektlər sükuta üstünlük verir və məsələyə münasibət bildirməməyə çalışırlar. "Lakin Bakı bu konfiqurasiyanı da dağıtdı və hər kəs bir daha şahidi oldu ki, regionda sülh və təhlükəsizlik sferaları başda olmaqla, gündəlik Azərbaycan tərəfindən diktə olunur. Aprelin 28-də ABŞ Dövlət katibi Entoni Blinkenin Prezident İlham Əliyevə zəng edərək Ermənistan ilə Azərbaycan arasında sərhədlərin delimitasiyası üzrə razılaşmaya görə təbriklərini çatdırması da göstərdi ki, özünü beynəlxalq ictimaiyyətin aparıcı qüvvəsi elan edən Vaşinqton nəinki proseslərin cənab İlham Əliyevin müəyyən etdiyi formatı ilə barışmalı olub, üstəlik Bakı və İrəvan arasında münasibətlərin normallaşdırılmasına və sülh gündəliyinin irəli aparılmasına dəstək göstərməyə də hazırdır", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, Azərbaycan regionda dayanıqlı sülh naminə, habelə delimitasiya və demarkasiya prosesinə töhfə verə biləcək istənilən sağlam təklif üçün açıqdır. Hətta aprelin 26-da Almaniya Kansleri ilə birgə mətbuat konfransında dövlət başçısı "Sülhə nail olmaq üçün çox yaxşı fürsətlər var. Bütün bu işdə bizə kömək etmək istəyən ölkələrlə biz əməkdaşlıq etməyə hazırıq", - deyib. Lakin "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda Prezident məsələyə daha detallı aydınlıq gətirərək qeyd etmişdi ki, söhbət hər hansı vasitəçilikdən getmir. Çünki bu gün sərhədimizdə baş verənlər onu nümayiş etdirir ki, bizimlə heç kəsin işi olmadığı, bu vəziyyətin kiminsə siyasi ambisiyaları naminə istifadə edilmədiyi halda biz gec-tez razılığa gələ bilərik.

### Ermənistan hakimiyyəti sülh üçün xarici təsirlərdən xilas olmalıdır

Deputat bildirib ki, vasitəçilərin cəlb olunduğu və heç bir səmərə verməyən 30 illik danışıqlardan fərqli olaraq Bakı və İrəvan arasında cəmi 6 aydır start verilən vasitəçisiz təmaslar artıq nəticə verir. İlk növbədə dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi Komissiyalarının 8-ci görüşünün nəticəyönümlülüyü bunu bir daha təsdiq edir. Aprelin 5-də Aİ-ABŞ-Ermənistanın Brüsseldə keçirilmiş görüşü başda olmaqla, bir çox platformalarda kollektiv Qərbin Cənubi Qafqazda ayırıcı xətlər çəkmək üçün cəhdlər göstərdiyi bir vaxtda Azərbaycan sülh gündəliyində israr göstərərək bu xüsusda qəti siyasi iradəyə malik olduğunu sübut edib.

Cənab İlham Əliyev həm Vətən müharibəsində, həm də antiterror əməliyyatlarında sübut edib ki, bizə kiminsə ərazisi lazım deyil. Biz beynəlxalq hüquqa sadiqik və bu mənada, Ermənistanın bizdən müdafiə olunması adı altında sürətlə silahlandırılmasına, yaxud digər formada vəziyyətin gərginləşdirilməsinə ehtiyac yoxdur. Daha ciddi addımların atılması, xüsusən sülh və sabitlik üçün yaranmış bu unikal imkanın hədər getməməsi üçün indi Ermənistanın iradə nümayiş etdirməsi vacibdir. İndiki məqamda əgər Paşinyan iqtidarı iradəsini qorumasa, sülh prosesi üzrə öhdəliklərindən geri çəkilsə, bu, ilk növbədə erməni xalqının rifahı, təhlükəsizliyi və maraqlarına tarixi zərbə olacaq.

Ermənistan hakimiyyəti həm xarici təsirlərdən xilas olmalı, həm də onların Hayastandakı uzantıları olan revanşist dairələr qarşısında qətiyyətli dayanmalıdır ki, erməni xalqı da rahat nəfəs ala bilsin. Hazırda isə qarşıda delimitasiya və sülh prosesinin davamlılığının təmin olunması kimi ciddi vəzifə dayanır. 1 iyul 2024-cü il müddətinədək Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi üzrə Komissiyanın Birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinin razılaşdırılması üzrə işin başa çatdırılması nəzərdə tutulur. Daha sonra isə növbə anklav kəndlərindir. Müvafiq kateqoriyadan olan 4 kəndimizlə bağlı Bakının mövqeyi qətidir.

Prezident İlham Əliyevin 10 yanvar 2024-cü il bəyanatında da ifadə olunduğu kimi, həmin kəndlərlə əlaqədar ayrıca bir ekspert qrupu yaradılmalıdır və o, müzakirə edilməlidir. Biz hesab edirik ki, bütün anklavlar qaytarılmalıdır. Bu anklavlara gedən yollarda şərait olmalıdır və bu anklavlara orada yaşayan insanlar yerləşdirilməlidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# "Bir daha əmin olduq ki, dövlətimizin sükanı etibarlı əldədir"

## Bu, Bağanıs Ayrım sakinlərinin yekdil fikridir

**Ötən əsrin 90-cı illərinin əvvəlində Ermənistanın işğal etdiyi ərazilərimizdən biri də Qazaxın Bağanıs Ayrım kəndidir. Düşmənin hələ 1988-ci ildən törətməyə başladığı təxribatlar Bağanıs Ayrımı da gözləyirdi.**



Xüsusi strateji əhəmiyyətə malik kənd İcevan-Noyemberyan avtomobil yolu üzərində yerləşdiyindən düşmən gələcəkdə təhlükəsiz hərəkət edə bilməsi üçün bu kəndin işğalını xüsusi plan əsasında həyata keçirməyə başladı. Tarixboyu Azərbaycana qarşı torpaq iddiası irəli sürən və "böyük Ermənistan" xülyası ilə yaşayan düşmənlərimiz 1990-cı ildə martın 23-dən 24-nə keçən gecə böyük bir qüvvə ilə - zirehli texnika və tanklarla kəndə daxil oldular. Əliyalın kənd sakinləri təpədən-dırnağadək silahlanan erməni hərbçilərindən canlarını qurtarmaq üçün qonşu kəndlərə və meşələrə üz tutdular. Evləri talayan ermənilər sonra onlara od vurur, qaçan insanları isə tutaraq oda atırdılar. Kəndin 7 sakini insanlığa sığmayan işgəncələrlə öldürüldü, 2 nəfər güllələndi. Ocaqda yandırılanların ən kiçiyi 2 aylıq körpə, böyüyü isə 70 yaşında idi.

Bu gün kəndətrafı yüksəkliklərdən baxdıqda Bağanıs Ayrım əsl xarabalığa bənzəyir. Bu xarabalıq 34 il əvvəl ermənilərin kənd sakinlərinə qarşı törətdikləri vəhşiliklərə şahidlik edir. Ailələri bütövlükdə yandıran, dinc əhaliyə rəhm etməyən ermənilərin bu kənddə törətdiklərini bir sözlə ifadə etsək, ona soyqırımından başqa ad vermək mümkün deyil.

Amma bu gün kəndin sağ qalan sakinləri sevinc içindədirlər. Prezident İlham Əliyevin apardığı qətiyyətli siyasət nəticəsində Qazaxın 4 kəndinin, o cümlədən Bağanıs Ayrımın azad edilməsi xəbərini onlar qürur hissilə qarşılamışlar.

Ələsgər Hacıyev Bağanıs Ayrımın ağsaqqallarındandır. Doğma kəndlərindən didərgin düşəndə övladları hələ ailə qurmamışdılar. Qazax rayonunda salınmış qaçqın şəhərciyində məskunlaşan ailə ötən illər ərzində xeyli böyümüşdür. Ələsgər kişi övladlarını evləndirmiş, baba olmuşdur.

Doğma kəndinin azad olunması xəbəri ona böyük sevinc bəxş edib. İndi o, böyük arzularla yaşayır. Deyir ki, yurduna dönəcəyi günü səbirsizliklə gözləyir. Həmkəndliləri Valeh Məmmədov, Qələndər Adıgözəlovun da yeganə arzuları yurda dönüb ömürlərini orada başa vurmaqdır. Deyirlər ki, ev-eşikləri dağıdılsa da, onu yenidən bərpa etmək olar: "Əsas odur ki, torpaqlarımız işğaldan azad olur. Bunu isə edən Prezidentimizdir. Bir daha əmin olduq ki, fevralın 7-də düzgün seçim etmişik, dövlətimizin sükanını etibarlı ələ vermişik".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***